*İlham Əliyev:*

# Azərbaycan iqtisadiyyatı möhkəmdir və müsbətdir



**Ötən ilin son günlərində manatın devalvasiyası ölkə iqtisadiyyatının inkişafında müəyyən sahələrin daha da inkişaf etdirilməsini zəruri edir. Dünya bazarında neftin kəskin ucuzlaşması bir neft ölkəsi kimi Azərbaycanın da iqtisadiyyatına mənfi təsirlərini göstərməyə bilməzdi. Lakin hazırkı durum göstərir ki, belə vəziyyətdə olan ölkələrlə müqayisədə Azərbaycan bu çətinlikdən ən etibarlı sığortalanmış iqtisadiyyata malikdir.**

Bunu ölkə iqtisadiyyatının çoxşaxəli inkişafının təmin edilməsi, neftdən gələn gəlirlərin düzgün istiqamətlərə yönəldilməsi, valyuta ehtiyatlarının sağlamlaşdırılması və s. amillərlə izah etmək mümkündür. Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı yanvarın 18-də keçirilən müşavirədə dövlətimizin başçısının nitqinin məzmununda da öz təsdiqini tapır.

Prezident qeyd etmişdir ki, Azərbaycan bu vəziyyətdən çıxmaq üçün çox ciddi addımlar atır. Bizimlə eyni vəziyyətdə olan ölkələr arasında bu böhranlı vəziyyətdən Azərbaycan ən az itkilərlə çıxa bilmişdir.

Dövlətimizin başçısı müəyyən dairələrin yaranmış vəziyyətdən sui-istifadə edərək insanlar arasında ajiotaj yaratmasına da öz çıxışında qəti və əminliklə cavab vermişdir: “Biz əvvəllər bundan da çətin vəziyyətlərlə üzləşmişik. Azərbaycan xalqı və Azərbaycan dövləti buna oxşar bütün belə məqamlarda güclü iradə nümayiş etdirmişdir. Biz müstəqil dövlət quruculuğu işində çox böyük uğurlara nail ola bilmişik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkədir. Son 10 il ərzində dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ölkə olmamışdır. Bu, həqiqətdir, reallıqdır və bunu bütün göstəricilər təsdiqləyir”.

Dövlət başçısının səsləndirdiyi fikirlərin təməlində illərdən bəri aparılan uğurlu iqtisadi siyasətin nailiyyətləri dayanır. Xüsusilə son illərdə ölkə iqtisadiyyatının çoxşaxəli inkişafı Azərbaycan rəhbərinin yürütdüyü siyasətin əsasını təşkil etmişdir. Bu siyasətin nəticəsində qeyri-neft sektorunun inkişafında ciddi uğurlara nail olunmuşdur. Yalnız 2015-ci ilin göstəricilərinə görə Azərbaycanda qeyri-neft sənayesi 8 faizdən çox artmışdır. Burada kənd təsərrüfatının inkişafını və bu sahədə 7 faizdən çox artımın əldə edilməsini də ayrıca vurğulamaq vacibdir.

Bütün bunların nəticəsi olaraq ölkə iqtisadiyyatı dayanıqlığını qoruyub saxlaya bilir. İqtisadiyyat naziri Şahin Mustafayev yola saldığımız ildə Azərbaycan iqtisadiyyatının, qeyri-neft sahəsinin inkişafından bəhs edərkən bildirmişdir ki, görülən işlərin nəticəsi olaraq, 2015-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 70%-ə çatdırılmışdır. Ümumi göstəricilərə nəzər salarkən məlum olur ki, ötən ilin yanvar-noyabr ayları ərzində sənaye 3%, qeyri-neft sənayesi 7,5% artıb.

Ş.Mustafayev iqtisadiyyatın diversifikasiyasının və qeyri-neft sektorunun inkişafının cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən olduğunu vurğulayaraq bildirib ki, Azərbaycanda son 10 ildə ümumi daxili məhsul istehsalı 3 dəfə, sənaye istehsalı 2,7 dəfə, qeyri-neft sənayesi 1,8 dəfə artıb: “Azərbaycanda iqtisadiyyatın əsas sahələrindən olan sənayenin inkişafına xüsusi önəm verilir”.

Ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişaf etdirilməsində özəl sektor xüsusi əhəmiyyətə malikdir. Sahibkarlığın stimullaşdırılması və inkişafı üçün özəl bölməyə xüsusi diqqət göstərilir, müxtəlif istiqamətlər üzrə dövlət dəstəyi tədbirləri həyata keçirilir. Dövlət başçısının təşəbbüsü və göstərişi ilə 2015-ci ildən başlayaraq sahibkarlıq subyektlərində aparılan yoxlamaların dayandırılmasına, gömrük və lisenziyalaşdırma sahələrində inzibati prosedurların sadələşdirilməsinə dair imzalanmış Fərman və sərəncamlar sahibkarlıq sahəsində çox mühüm addımlar olmaqla özəl bölmənin inkişafında böyük rol oynayacaqdır.

Qeyd edilən müşavirədə dövlət başçısı ölkə iqtisadiyyatının vəziyyətini qiymətləndirərkən vurğulamışdır ki, Azərbaycan iqtisadiyyatının vəziyyəti dayanıqlı və müsbətdir: “Bütün iqtisadi göstəricilər bunu göstərir. Hətta böhranlı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib. Ümumi daxili məhsul, qeyri-neft sektoru, sənaye istehsalı artıb, kənd təsərrüfatı təxminən yeddi faiz artıb. Bizim valyuta ehtiyatlarımız yaxşı səviyyədədir. Valyuta ehtiyatlarımızı qoruyuruq. Xarici dövlət borcumuz çox aşağı səviyyədədir, təxminən 12 faiz səviyyəsindədir. Devalvasiyadan əvvəl isə 10 faizdən az idi. Yəni, bu, dünya miqyasında ən yaxşı göstəricilərdən biridir”.

Lakin dünyada və regionda yaranmış situasiya qeyri-neft sektorunun daha da inkişaf etdirilməsini zəruriləşdirir. Bu isə sahibkarlığın təşviq edilməsi, istehsal sahələrinin artırılması və sənayenin inkişaf etdirilməsi sayəsində mümkündür. Ölkəmizdə bu istiqamətdə kifayət qədər uğurlu addımlar atılmaqla yanaşı, qarşıdan gələn illərdə də bu sahələr prioritet olaraq qalacaqdır. Bu məqsədlə 2016-cı ildə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə fermerlərə, iş adamlarına 250 milyon manat güzəştli kreditlərin verilməsi nəzərdə tutulur. Digər layihələri və investisiyalar da nəzərə alındıqda bu il ölkədə iqtisadiyyatın real sektoruna, o cümlədən regionlara qoyulacaq investisiyaların həcmi təqribən 1 milyard manat olması proqnozlaşdırılır.

Yaranmış vəziyyəti təhlil edən iqtisadçı ekspertlər bu mərhələnin Azərbaycan iqtisadiyyatında ciddi çətinliklər yaratmayacağını söyləyirlər. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadənin sözlərinə görə, bir çox ölkələrdə qlobal dünya böhranının təsiri yaşanır. Onlar öz valyuta ehtiyatlarını itirir, sosial-iqtisadi göstəricilərini xeyli aşağı salır, ixtisarlar edirlər: “Bu fonda Azərbaycan iqtisadiyyatı dinamiklik göstərir, inkişaf edir. Cənab Prezident keçirdiyi müşavirədə Azərbaycan iqtisadiyyatının davamlılığı, xalqın həyatının daha da yaxşılaşdırılması naminə hökumətə mühüm tapşırıqlar verdi”. Z.Səmədzadə qeyd edib ki, devalvasiya prosesindən sonra müəyyən təzyiqlər olsa da, Prezident İlham Əliyevin verdiyi tapşırıqlar, atdığı addımlar Azərbaycan iqtisadiyyatının yenə də inkişafını davam etdirəcəyinə əminlik yaradır.

İqtisadçı ekspert, Milli Məclisin deputatı Vahid Əhmədov da öz növbəsində bildirib ki, Prezidentin təşəbbüsü ilə təqdim olunan layihələr inqilabi dəyişikliklərdir: “Bütün dünyada, qonşu ölkələrdə də milli valyutalar devalvasiya edib. 2016-cı ildə problemlər yaranıb. Prezident bu durumu nəzərə alaraq çörəyin, unun, buğdanın qiymətini stabilləşdirdi. Bu məhsullar əlavə dəyər vergisindən azad edildi. Təbii ki, devalvasiya zamanı sahibkarlar gəlir əldə etmək üçün qiymətləri 100 faiz qaldırdı. Biz süni qiymət artımından danışarkən, hansısa məhsulların qiymətinin devalvasiyaya adekvat artırılmasını nəzərdə tutmuruq. Prezidentin tapşırığı, İqtisadiyyat Nazirliyinin tədbirləri sayəsində süni qiymət artımının qarşısı alınıb”.

V.Əhmədovun sözlərinə görə, dövlət başçısı tərəfindən təqdim edilən qanun layihələri iqtisadiyyatımızın gələcək inkişafı üçün olduqca əhəmiyyətlidir: “İndiki vəziyyətdə cənab Prezident düzgün addım atıb və bu qərar doğrudur. Vergi Məcəlləsinə, gömrük taarifi haqqında qanuna dəyişikliklər də müsbət haldır və bunun nəticəsini görəcəyik. Dəyişikliyə əsasən, 7 il müddətinə avadanlıqların ölkəyə gətirilməsi vergidən azaddır. Yerli istehsalı artırmaq üçün dəyişikliklər müsbət perspektivlər ortaya qoyur. Bu qanunlar çox müsbət və mütərəqqidir”.

**Taleh Turqut,**
***“İki sahil”***